Yaddaşlarda yaşayanlar

# *Mirzə Babayev:* Mən də Mirzəbəylidə doğulmuşam... Hə, nə dəyişdi?





**Ailəmizin nizamının pozulması atamı çox üzürdü. Əvvəl onun anası, sonra böyük qardaşı, daha sonra isə iki qızı – mənim cavan bacılarım dünyalarını dəyişdilər. İkinci dünya müharibəsinin minbir əzabına dözərək, cəbhədən əlil qayıtmış kişi indi bu itkilərə dözə bilmirdi. Atam həmin illərdə Mirzə Babayevin ifasında radioda səsləndirilən “Kimlər gəldi, kimlər getdi...” mahnısını həyəcansız dinləyə bilmirdi. Həmin mahnı televiziyada veriləndə isə, müğənninin jestləri, səhnə hərəkətləri musiqinin də təsirini artırırdı, sözlərin də.**

... Dövlət radiosunda veriliş aparmağa başladığımdan təxminən iki il keçirdi. Atam mənim verilişlərimdə xanəndə Yaqub Məmmədov, müğənni Rəsmiyyə Sadıqova və qaboy ifaçısı Kamil Cəlilovla söhbətlərimi eşitmişdi. Ona görə də, kəndə gedəndə mənə tapşırdı ki, Mirzə Babayevlə də söhbət hazırla, o mahnını sənin verilişindən də eşidim. Söz verdim. Amma düşünürdüm ki, Mirzə Babayev kimi hər günü, hər saatı “zanit”dir deyilən, gah mahnı yazılışında, gah kino çəkilişində, gah da el məcislərində olan sənətkarı o qədər də tanınmamış bir aparıcının verilişinə gətirmək... asan məsələ deyil.

İş elə gətirdi ki, məqsədimə çata bildim. Daha doğrusu, bir neçə görkəmli sənətkara dediyim “Əslində, sizin belə bir təbliğata ehtiyacınız yoxdur, amma mənim sizinlə söhbət etməyə ehtiyacım var” arqumentim Mirzə dayını da yumşaltmışdı. Studiyaya gələnədək çox məsələlərdən, xüsusən, Sovet əsgərlərinin teleşirkətdə törətdiyi təxribatlar haqqında xeyli söhbət elədik.

Səsyazma studiyasında isə onun oxuduğu yeni mahnılar, çəkildiyi filmlər, bəstəkar Tofiq Quliyevlə dostluğu, memarlığı ataraq estradaya gəlməsi, oradan da kinostudiyaya cəlb edilməsi, gələcək planları və digər mövzularda suallarımı olduqca ciddi şəkildə cavablandırdı. Son üç sualımın cavabı isə birbaşa zarafat idi. Həmin zarafatları da efirə verdik:

– Mirzə müəllim, bir qəzetdə oxumuşdum ki, siz Hökməlidə doğulmusunuz. Başqa bir yazıda isə qeyd edirlər ki, siz Maştağada dünyaya gəlmisiniz. Özünüz isə demisiniz ki, mən İçərişəhərdəki “ağşalvarlılar” nəslindənəm. Bunların hansı doğrudur?

– Həə... Sən hansı rayonda və ya kənddə doğulub böyümüsən?

– Qutqaşen rayonunun Mirzəbəyli kəndində.

– Mən də Mirzəbəylidə doğulub böyümüşəm. Hə, nə dəyişdi? Heç nə. Sən də deyə bilərsən ki, Dərbənddə doğulmuşam. Əmin edirəm ki, heç nə dəyişməyəcək.

– Bayaq həyətdə söhbət edərkən siz beş-altı dəfə “alə” sözünü işlətdiniz. Mən narahat idim ki, efirdə də o sözü eşidəcəyik.

– Alə, həyətin həyət söhbəti var, efirin efir...

– İndi mən dinləyicilərə sizin məşhur ifalarınızdan birini – Soltan Hacıbəyovun Zeynal Xəlilin sözlərinə yazdığı “Kimlər gəldi, kimlər getdi?” mahnısını təqdim edirəm.

– Sifarişçi kimdir?

– Atam.

– Qonorar nağd olacaq, yoxsa köçürmə ilə?

– Kənddə köçürmə olmur.

– Atana salam söylə!

***

... Allah atama da rəhmət eləsin, Mirzə dayıya da, Soltan Hacıbəyova da, Zeynal Xəlilə də.

Təbii ki, qəzet səhifəsində, bu rubrikada musiqi səsləndirmək olmur. Amma mahnının bir bəndinin sözlərini xatırlatmaq mümkündür:

**Hər dövranda bir gərdiş var,**
**Min rəng çalır bu rüzigar.**
**Hünər göstər, bir şey apar**
**Bu dünyadan, bu dünyadan.**

Aparmaq olmur, qardaş, indiyədək aparan olmayıb. Sadəcə, yaradıcı adamların əsərləri, yaxşı adamların isə söhbətləri qalır.

**P.S.** Həmkarımız İlqar Həsənov mənim 50 yaşım münasibətilə keçirilən tədbirdə bu mahnını bəzi yeni müğənnilərdən yaxşı oxumuşdu.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***